# Bu sənəd korrupsiyaya qarşı mübarizənin vacib atributlarından biridir

***Prezident İlham Əliyevin sərəncamı ilə "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi bu istiqamətdə atılan daha bir sanballı addımdır. Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə sahəsində davamlı surətdə həyata keçirilən strategiya nəticəsində son illər ölkəmiz böyük uğurlar əldə edib. Belə ki, ölkə başçısının tapşırığı ilə Dövlət Təhlükəsizliyi Xidmətinin və Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin həyata keçirdiyi əməliyyatlar, bir sıra nazirliklərin məsul şəxslərinin, habelə bəzi rayonların icra hakimiyyəti başçılarının həbs edilməsi bir daha göstərdi ki, ölkəmizdə korrupsiyaya qarşı ciddi mübarizə var və heç kim qanundan üstün deyil.***



Milli Məclisin deputatı, Böyük Quruluş Partiyasının rəhbəri Fazil Mustafa "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı"na münasibət bildirərkən dedi ki, ölkəmizdə korrupsiyaya və rüşvətxorluğa qarşı daim mübarizə aparılır: "Azərbaycanın korrupsiyaya qarşı mübarizə təcrübəsi sistemli, kompleks və innovativ xarakteri ilə seçilir. Bu sahədə görülən tədbirlər çərçivəsində korrupsiyaya qarşı mübarizəyə dair milli strategiya və fəaliyyət planları qəbul olunmuş, yeni baxışlar və vəzifələr müəyyən edilmişdir".

Partiya sədri bildirdi ki, ölkəmizin korrupsiyaya qarşı mübarizə siyasətinin vacib istiqamətlərindən biri də beynəlxalq əməkdaşlıqdır. Bu çərçivədə xarici ölkələrin təcrübəsinin araşdırılması, beynəlxalq sənədlərə qoşulma və onların icrası, ixtisaslaşmış təşkilatlar və xarici qurumlarla əməkdaşlıq əlaqələrinin qurulması məsələləri daim diqqətdə saxlanılır və bu sahədə əhəmiyyətli nailiyyətlər əldə olunub. Hazırda ölkəmizdə sosial dövlətin yeni modeli formalaşmış və dövlət siyasətinin əsas məqsədi insanların yüksək sosial rifahına nail olmaqdır.

Ölkəmizin bu gün korrupsiyaya qarşı mübarizə sahəsində bütün əhəmiyyətli beynəlxalq konvensiyalara qoşulduğunu, onların icrasının təmin edildiyini diqqətə çatdıran F. Mustafa bu sənədlərin korrupsiyaya qarşı mübarizənin vacib atributlarından biri olduğunu və vaxtaşırı bu məsələ ilə bağlı dövlətin apardığı siyasətin önəmini vurğuladı: "Yəni, bu sahəyə yetirilən diqqətin vacibliyini burada qəbul edirik. Hesab edirəm ki, korrupsiyaya qarşı mübarizə daim aparılmalıdır. Hər hansı bir şəkildə səngimək olmaz. Çünki bu, gündəlik təzahürdür. İnsanların, xüsusilə də məmurların bu alışqanlığını dəyişmək mümkün deyil. Hər an ortaya böyük problemlər çıxara bilər. Büdcənin talan olunmasından tutmuş, layihələrin sıradan çıxarılmasına qədər korrupsiya elementləri daha açıq görünür. Hətta bəzən ordu quruculuğunda – Müdafiə Nazirliyinə qədər korrupsiya elementləri aşkara çıxarıldı. Bunlar hamısı ardıcıl həyata keçirilməli məsələlərdir".

***Söhbəti qələmə aldı:***
***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 10 aprel.- S.4.